## TƏRBİYƏ VƏ PEDAQOJİ FİKİR TARİXİ BÖLMƏSİ

# Halallıq tərbiyəsi tərbiyənin tərkib hissələrindən biri kimi

**Şəfiqə Tahirova**
ADU-nun müəllimi,
**Email:** milliirs@mail.ru

**Rəyçi: Fərahim Sadıqov,**
pedaqogika üzrə elmlər
doktoru, professor

*Məqalədə halallıq tərbiyəsi tərbiyənin tərkib hissələrindən biri kimi əsaslandırılmışdır. Məqalədə orta ümumtəhsil məktəblərində V-XI sinif şagirdlərinin halallıq tərbiyəsinin formalaşdırılmasının pedaqoji əsaslarının müəyyənləşdirilməsi və onlara istinad edilməsi işinin mahiyyəti*

*aydınlaşdırılır. Bu zaman halallıq tərbiyəsi tərbiyənin tərkib hissələrindən biri kimi təhlilə cəlb edilir.*

*Məqalədə göstərilir ki, V-XI sinif şagirdlərinin halallıq tərbiyəsinin pedaqoji əsasları deyəndə nəzərə alınan pedaqoji tələblər, istinad olunan pedaqoji prinsiplər və tədbiq edilən pedaqoji üsullar, istifadə olunan pedaqoji vasitələr və müvafiq priyomlar nəzərdə tutulur. Bunların hamısı tərbiyənin müvafiq tərkib hissəsi üçün səciyyəvidir. Məqalədə V-XI sinif şagirdlərinin halallıq tərbiyəsini təşkil edərkən istifadə olunan pedaqoji əsaslara dair nəzəri və praktik nümunələr də verilir.*

**Açar sözlər**: tərbiyənin tərkib hissələri, halallıq tərbiyəsi tərbiyənin tərkib hissəsi kimi, halal əmək, halal iş, halallığın pedaqoji əsasları, hallalıq tərbiyəsinin prinsipləri, məqsədəmüvafiqlik prinsipi, ardıcıllıq prinsipi, tələbkarlıq prinsipi, kompleks yanaşma prinsipi, halallıq tərbiyəsinin vasitələri, halallıq tərbiyəsinin üsulları.

**Ключевы слова**: воспитание праведности, праведный труд, праведное дело, педагогические основы праведности, принципы праведного воспитания, причин соответствии я, принцип последовательности, принцип требовательности, принцип комплексного подхода, способы воспитания праведности, методы воспитания праведности.

**Key words**: Honest Education, Honest Labor, Honest Employment, Pedagogical Fundamentals of Calligraphy, Principles of Correction, Purpose of Principle, Consistency Principle, Principle of Consciousness, Principle of Integrated Approach, Honest Education, Honest Teaching Methods.

Müstəqillik dövründə tərbiyənin tərkib hissələrilə bağlı aparılan tədqiqatların genişlənməsini yaxşı hal kimi qeyd etmək lazımdır. Onlardan biri də halallıq tərbiyəsidir. Halallıq tərbiyəsi müvafiq pedaqoji əsaslara malik olduğu üçün onu müstəqil tərkib hissəsi kimi təqdim edə bilərik.

Hər bir tərbiyə işinin müəyyən pedaqoji əsasları mövcud olduğu kimi onun müvafiq psixoloji əsaslara da malik olması şübhəsizdir. Bu baxımdan halallıq tərbiyəsinin də pedaqoji-psixoloji əsasları barədə məlumat verilməsinə zəruri ehtiyac duyulur. Çünki halallıq tərbiyəsinin formalaşdırılması üçün onun mahiyyəti, məzmunu, ədəbiyyatda və məktəb təcrübəsin-

dəki vəziyyətilə yanaşı, pedaqoji-psixoloji əsaslarının da öyrənilməsi vacibdir.

Halallıq tərbiyəsinin pedaqoji əsasları dedikdə ilk növbədə halallıq tərbiyəsi ilə bağlı aparılan işlərin qarşısında qoyulan ümumipedaqoji tələblər, istinad edilən ümumpedaqoji prinsiplər və tətbiq edilməsi nəzərdə tutulan ümumpedaqoji üsullar və priyomlar (tərzlər) nəzərdə tutulur. Yəni, halallıq tərbiyəsinə verilən tələbləri, istinad edilən prinsipləri, tətbiq edilən üsul və priyomları (ümumpedaqoji tərzləri) əvvəlcədən müəyyənləşdirmədən onun həyata keçirilməsinə nail olmaq mümkün deyil. Eyni sözləri psixoloji əsaslar haqqında da demək olar. Yəni, halallıq tərbiyəsi işində şagirdlərə psixoloji cəhətdən yanaşmadan, onların bir şəxsiyyət olaraq psixologiyasının xarakteristikasını öyrənmədən qarşıya qoyulan məqsədə çatmaq mümkün deyil.

Elmi pedaqogikanın qanunauyğunluqlarına görə tərbiyə işinin səmərəli həyata keçirilməsi üçün onun pedaqoji-psixoloji əsaslarının düzgün müəyyənləşdirilməsi zəruri sayılır. Bu baxımdan tədqiq etdiyimiz halallıq tərbiyəsinin həm pedaqoji əsaslarının, həm də psixoloji əsaslarının müəyyənləşdirilməsini məqsədəmüvafiq hesab etdik. Öncə halallıq tərbiyəsinin pedaqoji əsasları ilə bağlı elmi ideyaları irəli sürək.

Halallıq tərbiyəsini həyata keçirtmək üçün zəruri olan pedaqoji əsaslardan birincisi, müvafiq pedaqoji tələblərin qoyulması və həmin tələblərin gözlənilməsi hesab olunur. V-XI sinif şagirdlərinə halallıq tərbiyəsi üzrə müvafiq bilik və bacarıqların verilməsi iki istiqamət üzrə həyata keçirilməlidir.

Təlim prosesində verilən tələblər müvafiq mövzularla bağlı olmalıdır. Məsələn, Nizaminin "Kərpickəsən kişinin dastanı" mövzusunu keçərkən halallığın mahiyyəti, məzmunu aydınlaşdırıldıqdan sonra şagirdlərə aşağıdakı tələblərin verilməsi məsləhətdir:

1. Halallıq nədir? Onun mənasını dərindən dərk etmək vacibdir.
2. İslam dəyərlərindəki halallıq elementlərinin elmi mahiyyətini aydınlaşdırdıqdan sonra ona əməl etmək gərəkdir.
3. Halal əməyə uşaqlıqdan alışmaq lazımdır.
4. İctimai mühütdə müşahidə olunan haram işlərdən uzaq dayanmaq gərəkdir.
5. Hər bir şagird öz ailəsində halallıq ənənələrinin yaradılmasında yaxından iştirak etməlidir.

6. Hər bir şagird öz sinif yoldaşlarına halal olmağı tövsiyə etməlidir.
7. Hər bir şagird özündən kiçikyaşlı şagirdlərə halallığın mahiyyətini aydınlaşdırmağa borcludur.

Bu cür tələblər şagirdlərin halallıq tərbiyəsini aşkara çıxartmaq, onları inkişaf etdirmək və formalaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Halallıq tərbiyəsinin pedaqoji əsalarından biri də tərbiyə prinsiplərinə istinad olunmasıdır. Tərbiyə prinsiplərinə istinad etməklə şagirdlərdə halallığa olan meyllərinin artırılması, onlarda halallıq elementlərinin tərbiyə ənənələrinə çevrilməsini təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, halallıq tərbiyəsini aşkara çıxaran və inkişaf etdirən prinsiplərə istinad edərkən əsasən ümumpedaqoji prinsiplərə üstünlük vermək lazım gəlir. Ona görə V-XI sinif şagirdlərinin halallıq tərbiyəsinin inkişaf etdirməyə xidmət göstərən aşağıdakı ümumpedaqoji prinsiplərə istinad olunması vacib sayılır.

1. Halallıq tərbiyəsinin həyatla, əməklə və müstəqil dövlət quruculuğu ilə əlaqələndirilməsi prinsipi.
2. Halallıq tərbiyəsinin məqsədəmüvafiqlik prinsipi.
3. Halallıq tərbiyəsi zamanı yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi.
4. Halallıq tərbiyəsi prosesində ardıcıllığın, sistemliliyin və fasiləsizliyin nəzərə alınması prinsipi.
5. Halallıq tərbiyəsi zamanı tərbiyəçinin nikbin olmasının zəruriliyi prinsipi.
6. Halallıq tərbiyəsi prosesində hörmət və tələbkarlığın nəzərə alınması prinsipi.
7. Halallıq tərbiyəsi zamanı tələblərdə vahidlik və kollektiv pedaqoji təsirin, vahidliyin gözlənilməsi prinsipi.
8. Şagirdlərə aşılanan halallıq tərbiyəsi işinə kompleks yanaşma prinsipi.
9. Halallıq tərbiyəsi işində cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi.
10. Halallıq tərbiyəsi prosesində şagirdlərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

Halallıq tərbiyəsinin həyatla, həyat hadisələrilə əlaqələndirilməsinin çox mühüm əhəmiyyəti vardır. Bəzən ailədə, ictimai

mühitdə, xüsusilə mağazada, marketdə, hansısa ticarət mərkəzində, bazarda, alış-veriş yerlərində yeniyetmələr adamların çəkidə, ölçüdə aldadılması, lazımsız, dəyərsiz malların baha satılması, satıcıların yalandan and içməsi kimi halların şahidi olurlar. Yaxud yeniyetmələr valideynlərinin, qohumlarının, qonşularının tapdıqları malları əmanət kimi saxlayaraq sahiblərinin tapılmasını gözləmələri, halal əməyi təqdir etmələri, harama nifrətlə yanaşmaları və bu kimi digər hadisələrlə rastlaşırlar. Belə hallar yeniyetmələrin diqqətindən yayınmır. Onlar yaxşını təqdir, pisi isə tənqid etməyi sevirlər. Ona görə çalışmaq lazımdır ki, onlar əxlaqın müsbət təzahürlərindən biri olan halallığı özündə səciyyələndirən fəzilətləri təqdir etsinlər. Nəsirəddin Tusinin təbirincə desək, ictimai mühitin fəzilətlərinə istinad etməli, rəzilətləri isə nifrət obyektinə çevirməli. Uşağın, şagirdin, tələbənin qazandığı əmək vərdişləri onun bütün həyat və fəaliyyətinin stimulluna çevrilir. Əmək vərdişləri isə xalq təsərrüfatının bütün sahələrini əhatə edir. Bunun üçün şəxsiyyəti hərtərəfli formalaşdıran əmək vərdişlərinin yaradılmasına istinad olunması zəruri sayılır. Bu zaman müstəqil dövlət quruculuğun direktivlərinə istinad etmək də vacibdir(1, səh, 51)

Yeniyetmələrə halallıq tərbiyəsi elementlərini aşılamaq üçün onlara məqsədli şəkildə yanaşılması tələb olunur. Bu tələbin həyata keçirilməsi müvafiq prinsipə istinad etmədən mümkün sayıla bilməz. Bu baxımdan halallıq tərbiyəsinin xüsusi məqsədə uyğun olaraq həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Yeniyetmələrin xüsusi məqsədlə halallıqla bağlı folklor nümunələri ilə tanış edilməsi, onlara halallığın ən yüksək əxlaqi norma olması barədə məlumatların verilməsi, onların halal əməyə ruhlandırılması, halal əmək adamları ilə ünsiyyətə cəlb edilməsi çox faydalıdır. Təsadüfi deyil ki, görkəmli pedaqoqlar tərbiyənin məqsədini müvafiq prinsip kimi müəyyənləşdirərkən həmin məqsəddən doğan vəzifələrin yerinə yetirilməsini də unutmurlar. Professor F.Sadıqov və O.Həsənliyə məxsus "Tərbiyəşünaslıq" adlı dərs vəsaitində oxuyuruq: "Tərbiyənin məqsədini və bu məqsədəuyğun olan vəzifələri düzgün müəyyənləşdirmədən heç bir nailiyyət qazanmaq mümkün deyil. Tərbiyənin ali məqsədi öz milli koloritinə, müstəqil dövlət quruculuğuna, sərhədlərimizin bütövlüyünə, dövlət

atributlarına hörmətlə yanaşan, ölkəmizi inkiaşf etmiş dövlətlər səviyyəsinə qaldırmaq işində yaxından iştirak edən, ən nümunəvi mənəvi-əxlaqi sifətlərə malik olan, elmlərə yiyələnən sağlam ruhlu gənc nəsil yetişdirməkdir" (1, səh. 51-52). Doğrudan da milli koloritə uyğun hərəkət edən insanların böyük əksəriyyəti ən ali məqsədlərindən biri halallığı öz mənəvi dünyasında yaşatmaqla hörmət, izzət, mal-dövlət sahibi ola bilər. Çünki, belə adamlar Vətənini, onun bütövlüyünü, onu yad nəzərlərdən qorumağı hər şeydən üstün tuturlar. Belə halal insanların yetişdirilməsi ən ali məqsədlərdən hesab olunur.

Halallıq tərbiyəsinin həyata keçirilməsi işində yeniyetmələrin yaş, fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması çox vacibdir. Çünki, uşaqları halallığa kiçik yaşdan istiqamətləndirmək üçün onlarla həm də fərdi şəkildə iş aparmaq lazımdır. Bu zaman verilən öyüdlər, aşılanan tərbiyəvi elementlərin cinsi fərqlərə də uyğunluğu nəzərə alınmalıdır. Ona görə ki, ismətli qadınların halallığı ilə qeyrətli kişilərin halallığı arasında cinsi fərqlərin olması labüddur. Ona görə tərbiyəçilərin bu fərqli cəhətləri nəzərə almaları yaxşı olar. Prof. F.B.Sadıqov, O.Həsənli yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipindən danışarkən göstərirlər ki, etnopedaqoji materiallarda yetişən nəslin yaş dövrləri təxmini olaraq belə bölünür: çağalıq dövrü, körpəlik dövrü, uşaqlıq dövrü, yeniyetməlik dövrü, gənclik dövrü (1, səh. 52 ).

Halallıq tərbiyəsi zamanı tərbiyəçinin nikbin olmasının zəruriliyi prinsipinə də istinad etməyin üstünlükləri çoxdur. Tərbiyə işində bəzi tərbiyəçilər uşağın müsbət cəhətlərini adi hal kimi qiymətləndirirlər. Bəziləri isə daha çox qüsurlu uşaqları "pis" və ya "çətin" uşaq kimi tanıyaraq onlara tapşırıqlar vermirlər. Təcrübə və müşahidələr göstərir ki, istər ailədə, istər məktəbdə "pis" uşaq həmişə məzəmmətə, danlağa, hətta təhqirə məruz qalır. Sanki üstündə "pis" və ya "çətin" uşaq yarlığı yapışdırılımış ünvan kimi həmişə tənqidə məruz qalır. Bəzən tərbiyəçi, sinif rəhbəri, fənn müəllimi tərbiyə işləri üzrə direktor müavinləri həmin "pis" uşaqları çətin tərbiyə olunan uşaqlar kimi islaholunmaz uşaqların siyahısına salırlar. Unutmaq olmaz ki, hər pis uşağın, hər sözə baxmaz, islaholunmaz hesab olunan uşağın bir müsbət əlaməti, bir xoşagələn keyfiyyəti olur. Elmi pedaqogika təkidlə bildirir ki, tərbiyə edənlər

məhz həmin müsbət əlaməti, xoşagələn keyfiyyəti əsas götürərək tərbiyə işini layihələşdirməlidir. Başqa sözlə desək, hər bir tərbiyəçi öz işini onun motivinə görə qurmalıdırsa, bu zaman həmin motiv uşağın müsbət keyfiyyətləri olmalıdır (1, səh. 60). Deməli, halallıq tərbiyəsinin aşılanması prosesində müəllimin, tərbiyəçinin nikbin olması çox vacibdir. Çünki, halallığa biganə qalan, yaxud ailələrdən halallıq təsəvvürü olmadan gələn uşaqlara halallıq tərbiyəsi elementlərinin aşılanmasında əhvalı-ruhiyəsi nikbin olan pedaqoji işçilər bu sahədə böyük müvəffəqiyyət qazana bilərlər.

Eyni zamanda, hörmət və tələbkarlığa da bir prinsip kimi yanaşmaq lazım gəlir. Bu baxımdan halallıq tərbiyəsi işində hörmət və tələbkarlığın nəzərə alınmasını bir prinsip kimi qəbul etməyin faydası çoxdur. Əslində eyni adlı pedaqoji qanunauyğunluqdan yaranan bu prinsipin yaranma tarixi də qədimdir.

Eyni adlı qanunauyğunluqdan nəşət edən bu prinsipin çox dərin kökləri vardır. Azərbaycan xalq pedaqogikasının materiallarında bu prinsipin kökünü, təməl nöqtəsini, əsasını görmək olar. Atalar sözlərində, məsəllərdə, xalq hikmətlərində, habelə digər etnopedaqoji dəyərlərdə hörmətlə tələbkarlığın vəhdətdə götürülməsi çox mühüm tövsiyə, ən zəruri məsləhət xarakteri daşıyır (1, səh, 61 ). Məhz ona görə də halallıq tərbiyəsi işində hörmət və tələbkarlığın qəbul edilməsinin mühüm əhəmiyyəti vardır.

Tələblərlə bağlı olan iş prinsipləri çoxdur. Onlardan biri də halallıq tərbiyəsi zamanı tələblərdə vahidlik və kollektiv pedaqoji təsirin vahidliyinin gözlənilməsi prinsipidir. Halallıqla bağlı məktəbdə çalışan pedaqoji kollektivin bütün üzvlərinin vahid tələblərlə çıxış etməsi bu işin səmərəsini artırmış olur. Ona görə fənn müəllimləri təlim prosesində, dərsdən və məktəbdənkənar tədbirlərə rəhbərlik edənlər tərbiyə prosesində halallıq tərbiyəsilə bağlı vahid tələblərlə çıxış etməlidirlər. Əks təqdirdə halallıq tərbiyəsi işində heç bir müvəffəqiyyət qazanmaq mümkün deyil. Bir də ki, bu prinsip üzrə nəzərdə tutulan tərbiyə işlərini həyata keçirərkən pedaqoji prosesdə özünü büruzə verən ziddiyyətlərin aradan qaldırılması işini vəhdətdə götürmələri zəruri sayılır (1, səh. 62). Ümumiyyətlə desək, halallıq tərbiyəsinin aşılanması prosesində fərdi şəkildə görülən işlərin özü müəyyən ziddiy-

yətlərin yaranmasına səbəb olur. Ona görə bu prinsipin pedaqoji işçilər tərəfindən qəbul edilməsi məsləhətdir.

Halallıq tərbiyəsi üzrə görülən işlər zamanı V-XI sinif şagirdlərinin ictimai fəallığa cəlb olunmasının da əhəmiyyəti böyükdür. Çünki, ictimai fəallıq prosesində şagirdlərdə maraq yaratmaq, onların meylini yaxşı bir işə yönəltmək asan olur.

Yeniyetmələrin halallıq tərbiyəsilə bağlı hər hansı bir tədbirə, xüsusilə ictimai işə yönəldilməsi həm lazımdır, həm də vacib. Lazımdır ona görə ki, yeniyetmələri ictimai işlərə cəlb etməklə onları halallıq tərbiyəsi işində öncüllərdən birinə çevirmək olur. Vacibdir, ona görə ki, pedaqoji işçilərin hər birinin şagirdlərin tərbiyələndirilməsilə bağlı məqsədyönlü iş aparmaları onların təxirəsalınmaz vəzifələrindəndir.

Şagirdləri ictimai fəallığa cəlb etmək – tərbiyə prosesində özünü ən çox büruzə verən belə əlamətlərdən biridir.

İnsanın xarakteri, davranışı, rəftarı onun fəaliyyətinə əsasən müəyyənləşir.

Xarakterin diaqnostikası, hər şeydən əvvəl, insanın hansı fəaliyyətlə, nə işlə məşğul olması ilə müəyyən edilir. Bu cəhətdən şagirdlərin bədii yaradıcılıq fəaliyyəti xarakterin diaqnostikasında daha mühüm yer tutur.

Belə özfəaliyyət zamanı təşəbbüskarlıq, mərdlik, işgüzarlıq, səliqəlilik, həm də tənbəllik, durğunluq, süstlük, səliqəsizlik kimi müsbət və ya mənfi əlamətləri aydınlaşdırmaq olar (1, səh. 63 ). Ona görə yeniyetmə çağında şagirdlərin bədii yaradıcılıq dərnəklərinə, həmçinin maraq kurslarına cəlb olunması faydalıdır. Müxtəlif kütləvi tədbirlərdə yeniyetmə şagirdlərin məktəb səhnəsində nümayiş etdirdikləri səhnəciklərdə halallığın təqdir edilməsi, haramın ifşa edilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Halallıq tərbiyəsi üzrə həyata keçirilən işlər zamanı şagirdlərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması da vacibdir.

Şagirdlərin halallıq tərbiyəsinin inkişafına kömək edən pedaqoji əsaslardan biri də tərbiyə üsullarına istinad etməkdir. Bu zaman tərbiyənin inandırma, alışdırma, rəğbətləndirmə və cəzalandırma üsullarından istifadə etmək çox faydalıdır. İnandırma üsulları içərisində öyüd, nəsihət, dilətutma, yolagətirmə, başasalma, fərdi söhbətə cəlb etmək kimi üsullardan istifadə etməklə uşaq-

larda güclü halallıq tərbiyəsi elementləri yaratmaq olar.

Ailədə və eləcə də orta ümumtəhsil məktəblərində yeniyetmələrin halallıq tərbiyəsinin inkişaf etdirmək, formalaşdırmaq və təkmilləşdirmək məqsədi ilə müxtəlif tərbiyə üsullarından istifadə etmək üçün müvafiq mənbələrə istinad etmək çox faydalıdır. Bu vaxt tərbiyənin digər tərkib hissələri kimi halallıq tərbiyəsinin də formalaşdırılması üçün geniş imkanlar yaranır. Ona görə ki, öyüd verməklə halallığa istiqamətləndirmə, nəsihət etməklə halal işə cəlb etmə, yola gətirməklə halal əməyə yönəltmə, dilə tutmaqla halallıqla bağlı adət-ənənələri öyrətmə, tövsiyə verməklə halallıq tərbiyəsi aşılama, fərdi söhbətə cəlb etməklə halallığın mahiyyətini aydınlaşdırmaq pedaqoji cəhətdən mühüm əhəmiyyət kəsb edir. Alışdırma üsulları uşaqların şüuruna təsir göstərdiyi üçün bu üsullar şüura, idraka təsir edən üsullar da adlandırılır. Prof. A.N.Abbasov və H.Ə.Əlizadə inandırma üsullarını şüura, ağıla və idraka təsir edən usullar, alışdırma üsullarını isə fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar adlandırırlar.

Alışdırma üsullarını isə fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar kimi təqdim edən A.N.Abbasov və H.Ə.Əlizadə yazırlar ki, şagirddə düzgün davranış və rəftar qaydalar, yaxşı keyfiyyətlər yaratmaqdan ötrü inandırma metodu çox kömək göstərir. Lakin, tərbiyədə yalnız inandırma metodu ilə keçinmək olmur. Təkcə onunla söhbət etmək, məsləhət, öyüd-nəsihət vermək, onu dilə tutmaq, başa salmaq kifayət deyildir. Belə ki, məktəbliyə inandırıcı surətdə aydınlaşdırıla bilər ki, düzlük və doğruluq müsbət, insanlar tərəfindən təqdir edilən keyfiyyətlərdir. Həqiqətin tərəfində duran şəxsləri xoşlayırlar. Odur ki, hər bir adam doğrucul, əli, dili düz olmalıdır. Lakin, kiçik yaşlardan aldatmağa öyrənmiş, əliəyrilik edən, tez-tez yalan danışan şagirdlə təkcə söhbət etməklə onu düzlüyə alışdırmaq, yalandan çəkindirmək mümkün deyil. Bəzən mənfi keyfiyyətlər, adətlər xarakterdə o qədər möhkəm yer tutur ki, uzunmüddətli səy göstərmədən, əziyyətə qatlaşmadan tərbiyə işində müvəffəqiyyət qazanmaq olmur. Odur ki, tərbiyənin daha kəskin metoduna – məktəblinin fəaliyyətinin təşkili və ictimai davranış təcrübəsini formalaşdıran metodlara, o cümlədən alışdırma metoduna, onun vasitələrinə, priyomlarına müraciət et-

mək lazım gəlir. Həm də bu metoddan istifadə nəinki məsləhətdir, habelə çox vacibdir. Alışdırma bu və ya digər müsbət hərəkət və davranışa aid vərdişlərin yaradılmasını nəzərdə tutur (2, səh. 105).

Rejimə riayət etməyi öyrətməklə, ictimai-faydalı əməyə istiqamətləndirməklə, tələblər qoymaqla, tərbiyəvi situasiya yaratmaqla, tapşırıq verib etimad göstərməklə, bədii yaradıcılığa, idmana cəlb etməklə halal zəhmətə alışdırmaq əlbəttə ki, faydalıdır.

Bütün bunlar deməyə əsas verir ki, halallıq tərbiyəsinin bütün komponentləri onun müstəqil tərkib hissələrindən biri kimi təqdim etməyə əsas verir. Məhz ona görə də bir halallıq tərbiyəsini ilk dəfə olaraq tərbiyənin tərkib hissələrindən biri kimi təqdim etdik.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq tərbiyənin pedaqoji əsaslarına istinad etməklə halallıq tərbiyəsinin formalaşdırılması yolları aydınlaşdırılmışdır. Bu zaman halallıq tərbiyəsi üçün müstəqil tərkib hissə kimi təqdim olunmuşdur. Bu yeniliklər həm də pedaqoji fikir tariximizi zənginləşdirməyə xidmət edən yeniliklər hesab oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tədbiqi.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədə halallıq tərbiyəsi üçün müəyyənləşdirilən pedaqoji əsaslar, tələblər, prinsiplər, üsullar və priyomlar onun tərbiyənin müstəqil tərkib hissəsi kimi təqdim etməyə imkan verir.

**Nəticə** olaraq deməliyik ki, elmi pedaqogikada tərbiyənin digər tərkib hissələri sırasında halallıq tərbiyəsinin yer almasını elmi yenilik kimi qəbul etmək olar.

**İstifadə olunan ədəbiyyat**

1. Sadıqov F.B. Pedaqogika, Bakı, Adiloğlu, 2009.
2. Sadıqov F.B., Həsənli O.Q. Tərbiyəşünaslıq (dərs vəsaiti), Bakı, "elm və təhsil" nəşriyyatı, 2016, 360 səh.
3. Abbasov A.A., Əlizadə H.Ə. Pedaqogika, Bakı, Renessans, 2000, 202 s.
4. Bayramov Ə.S., Əlizadə Ə,Ə., Psixologiya (dərslik) Bakı, Çinar-çap Nəşriyyatı-Poliqrafiya müəssəsi, 2002, 611 s.
5. Ümumi Psixologiya (Petrovskinin redaktəsi). Bakı "Maarif" 1983.

**Шафига Таирова**

**Педагогические основа проведения работы по воспитанию праведности**

**Резюме**

В статье обосновывается, что праведность является одним важных направлений воспитания подрастающего поколения. В ней уточняются педагогически основы и ссылки на них в процессе формирования праведного воспитания учеников V-XI классов общеобразовательной школы. Воспитание праведности привлекается в этот процесс как часть обицего воспитания.

В статье отмечается, что човоря о педагогических основах праведного воспитания учащихся V-XI классов, следует иметь в виду педагогические требования и педагогическиие принципы, на которые делаются ссылки, а также используемые способы, средства и соответствующие приемы, претворяемые в жизнь. В статье приводятся также теоретические и практические образцы осуществления праведного воспитания учащихся V-XI классов.

**Shafiga Tahirova**

**Pedagogical bases of the work done in the field of Honest education**

**Summary**

The article deals with the pedagogical basics of the honest work of the upbringing generation. The article clarifies the essence of the work of identifying and referring to the pedagogical bases of the formation of honest education of V-XI grade pupils in secondary general education schools.

The article suggests that the pedagogical requirements, the pedagogical principles referred to and the pedagogical methods employed, the pedagogical tools used, and the relevant prerequisites are considered in the V-XI classes when teaching the pedagogical basics of honest education. The article also provides theoretical and practical examples of the pedagogical basics used in organizing honest education in the V-XI grade students.